| Xəstəlik sinifi (XBT-10) | J-Tənəffüs orqanlarının xəstəlikləri |
|---|---|

| İlkin versiyanın tərtibatçı (İSİM) | Camalova Ü. |
|---|---|

| XBT-10 rubrikası | Xəstəliklər |
|---|---|
| J01 | Kəskin sinusit |
| J01.0 | Kəskin yuxarı çənə sinusiti |
| J01.8 | Digər kəskin sinusit |

| Müalicə |
|---|

**Dərman müalicəsi :**

2 yaşa qədər uşaqlarda ağırlaşmamış kəskin bakterial sinusit, xəstəliyin yüngül və orta dərəcədə olanlar üçün:
***Amoksisillin*** (amoxicillin) gündə 45 mq/kq, 2 dəfə və ya gündə 90 mq/kq, 2 dəfə.
Xəstənin antibiotiklərə qarşı allergiyası varsa, sefalosporinlər təyin oluna bilər:

***Sefdinir*** (cefdinir) 14 mq/kq/gün, 1-2 dəfəyə;

***Sefuroksim*** (ceuroxime) 30 mq/kq/gün, 2 dəfəyə;

***Sefaklor*** (cefaklor)

*və ya*

***Sefpodoksim*** (cefpodoxime) 10 mq/kq/gün.

Ciddi allergik reaksiyalar zamanı:

***Klaritromisinin*** (clarithromycin) 15 mq/kq/gün, 2 dəfəyə

*və ya*

***Azitromisinin*** (azithromycin) ilk gün 10 mq/kq/gün, sonra 5 mq/kq/gün 4 gün.

Alternativ variant - penisilinə davamlı St. Pnevmoniya :

***Klindamisin*** (clindamycin) 30-40 mq/kq/gün 3 dəfəyə.

Müsbət dinamika yoxdursa və xəstənin vəziyyəti yaxşılaşmırsa, müalicəyə:

***Amoksisillin/klavulon turşusu*** yüksək dozalarda gündə 80-90 mq/kq amoksisillin və 6,4 mq/kq/gün klavulon 2 dəfəyə başlamaq lazımdır.

Alternativ terapiya

***Sefdinir, sefuroksim, sefpodoksimin*** təyin olunması. Əgər xəstədə qusma varsa seftriaksonun birdəfəlik dozaları (50 mq/kq/gün) venadaxili və ya əzələdaxili. 24 saat sonra xəstənin klinik vəziyyəti yaxşılaşdıqda dərmanın qəbulunu daxilə davam etmək.

## Ədəbiyyat


Синусит у детей

Версия: Архив - Клинические протоколы МЗ РК - 2007 (Приказ №764)

https://diseases.medelement.com/disease/12716